# Seçimin mübarək, Azərbaycan!




# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 6 (24.388)

8 fevral 2024-cü il, cümə axşamı

www.serqqapisi.gov.az

100 ilin qəzeti

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti


## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər



Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.



## Prezident seçkilərinin ilkin nəticələri: İlham Əliyev 92.1 faiz səs toplayıb

Mərkəzi Seçki Komissiyasının sədri (MSK) Məzahir Pənahov prezident seçkilərinin ilkin nəticələrini açıqlayıb.

Seçkilərin ilkin nəticələri aşağıdakı kimidir:

İlham Əliyev 92.1 faiz
Zahid Oruc 2.2 faiz
Fazil Mustafa 1.99 faiz
Qüdrət Həsənquliyev 1.78 faiz
Razi Nurullayev 0.79 faiz
Elşad Musayev 0.66 faiz
Fuad Əliyev 0.48 faiz.

## Qarabağ, Şərqi Zəngəzur, Naxçıvan…

### *Ən yüksək seçki fəallığı bu bölgələrdə oldu*

Dünən keçirilən prezident seçkilərində ölkə üzrə seçici fəallığı 76,73 faiz təşkil edib. Əhali işğaldan azad edilmiş ərazilərdə yerləşən məntəqələrdə seçkilərə daha mütəşəkkil qatılıb. Bu bölgədə yaradılan 26 seçki məntəqəsi üzrə seçici fəallığı 93 faizdən çox olub.

Həmçinin seçki dairələri üzrə də ən yüksək nəticə 83.28 faizlə 122 saylı Xankəndi Seçki Dairəsində qeydə alınıb. Qarabağ və Şərqi Zəngəzur əhalisini təşkil edən dairələrdə də seçki fəallığı ölkə üzrə orta göstəricidən artıq olub. Belə ki, seçici fəallığı 123 saylı Kəlbəcər Seçki Dairəsində 80.57 faiz, 121 saylı Laçın Seçki Dairəsində 79.70 faiz, 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsində 78,86 faiz, 118 saylı Ağdam Şəhər Seçki Dairəsində 78.64 faiz, 119 saylı Ağdam kənd Seçki Dairəsində 78.25 faiz təşkil edib.

Naxçıvanda mövcud olan 6 seçki dairəsində də seçici fəallığı 82 faizdən yüksək olub və muxtar respublika yenə də ölkə üzrə öncül mövqeyini qoruyub.

Qeyd edək ki, paytaxtda mövcud olan 31 seçki dairəsi üzrə ən yüksək nəticələr hər biri 83 faizdən artıq göstərici ilə 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi və 15 saylı Yasamal birinci Seçki Dairəsinə aid olub.

## İşğaldan azad edilmiş ərazilərdə seçkilər mütəşəkkilliklə keçirilib

Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq Xankəndidə keçirilən seçkilərdə vətəndaş fəallığı müşahidə olunub. Buradakı seçki məntəqəsi zəruri texniki vasitə və metodiki vəsaitlərlə təmin olunub, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçicilərin öz mövqelərini sərbəst şəkildə bildirmələri üçün kabinələr qoyulub və günün sonunadək məntəqədə seçici fəallığı müşahidə olunub.





İşğaldan azad olunmuş Şuşa şəhərində də növbədənkənar prezident seçkilərində fəallıq müşahidə olunub. Belə ki, səhər saatlarından sakinlər 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd Seçki Dairəsinin Şuşada yerləşən 105 saylı seçki məntəqəsinə gələrək öz səsvermə hüquqlarından istifadə ediblər. Türk dünyasının bu mədəniyyət mərkəzində 1 189 nəfər seçicinin səs verməsi nəzərdə tutulub.

Qeyd edək ki, budəfəki seçkilər ilk dəfə Azərbaycanın beynəlxalq səviyyədə tanınan bütün ərazilərində keçirilib.

## Səlahiyyətli nümayəndə Naxçıvan şəhərində 4 saylı Seçki Dairəsinin 32 saylı seçki məntəqəsində səs verib



Fevralın 7-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin Naxçıvan Dövlət Texniki Kollecində yerləşən 32 saylı seçki məntəqəsində səs verib.

Məntəqədə çoxsaylı müşahidəçilər səsvermə prosesini izləyiblər.

Səlahiyyətli nümayəndə komissiyanın işinə uğurlar arzulayıb.

Qeyd edək ki, bu seçkilər ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində keçirilir.

**"Şərq qapısı"**



# Azərbaycan seçicisi Heydər Əliyev yoluna – əbədi müstəqil Azərbaycana səs verdi

## Xalq "Zəfərlərə davam" dedi!



***Parlaq Qələbəniz və Qələbəmiz mübarəkdir, möhtərəm PREZİDENT!***

2024-cü il fevralın 7-də daha bir tarixi günü yaşadıq. Daha doğrusu, bu tarixi öz siyasi iradəmizlə, dövlətçiliyimizə və liderimizə olan sevgimizlə bir daha nümayiş etdirdik. Düşünürəm ki, müstəqil Azərbaycanın tarixində ən yaddaqalan səsvermə prosesi təşkil olundu. Səbəbi və növbədənkənar prezident seçkilərinin nəticəsi barədə bir azdan...

Gələk mövzuda mahiyyəti çatdırmaq istədiyim başqa bir məqama. Təqvim taxtası 2024-cü ili göstərir. Hamımıza bəllidir ki, Azərbaycan 4 il bundan öncə çıxdığı Zəfər yürüşünü parlaq Qələbə ilə nəticələndirib, dövlət suverenliyini bərpa edib, öz sərhədlərinə nəzarəti özü həyata keçirir. 30 il bizə qarşı başladıkları nifrətdən, Qərbdəki ədalətsiz beynəlxalq təşkilatlardan, dünyaya demokratiya dərsi keçməyə çalışanlardan yallanıb tarixi torpağımız Qarabağda separatçılıqla məşğul olanların, "boz zona" təşkil edib dövlət içində "dövlət" yaratmaq istəyənlərin, bizimlə təhdid ritorikası ilə danışanların bir qismini tarixin zibilliyinə göndərmişik, cinayətkarları isə Bakıda Azərbaycan qanunları ilə mühakimə edirik. Dövlət və xalq olaraq müharibədən sonra yeni bir dövrə qədəm qoymuşuq. Bu torpaqlara bir daha işğalçı ayaq basmayacaq.

Fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirildi və səsvermə prosesi





Şuşada, Xankəndidə, Xocalıda, Cəbrayılda, Füzulidə, Zəngilanda da təşkil olundu, siyasi iradəmizi Kəlbəcərdə, Ağdamda, Qubadlıda, Xocavənddə də nümayiş etdirdik. Bunun adı tarix deyilsə, bəs nədir? 30 il ən yaxşı günlərimizi, bayramlarımızı, şadlıqlarımızı bu torpaqlarda qeyd etməyi arzulamırdıqmı, Qarabağda Azərbaycan dövlətinin sabahı naminə səs verməyi diləmirdikmi? Məhz elə buna görə keçirilən prezident seçkiləri yaddaqalandır, əlamətdardır.

30 il məcburi köçkün həyatı yaşasaq da, doğmalarımızın məzarına, talanan, yağmalanan evimizə həsrət qalsaq da, sınmadıq, əyilmədik, xalq-lider-ordu birliyi ilə tarixə möhürümüzü vurduq. İndi Azərbaycan Bayrağı altında azad, təhlükəsiz Şuşada, Xocalıda, Xankəndidəki seçki məntəqəsinə yaxınlaşıb adımızı seçici siyahısında tapıb səs vermək necə bir xoşbəxtlik idisə, biz bunu yaşadıq.

Bütün bunları həyata keçirərkən biz müdrik qərarlara, siyasi qətiyyət və iradəyə, "Nəyi nə vaxt, necə etmək lazımdır bunu mən bilirəm", – deyən şəxsin – Prezident cənab İlham Əliyevin uzaqgörənliyinə arxalandıq. Azərbaycanın BİRİNCİ DÖYÜŞÇÜSÜ tarixi Qələbəmizi ilmə-ilmə toxudu, ölkə rəhbəri kimi bir gün belə Qarabağ məsələsi siyasi fəaliyyətindən kənarda qalmadı. Bu gün inamlı qələbə ilə yenidən Prezident seçilməsi xalqın Ona növbəti etimadını, siyasi inamını ifadə edir. Azərbaycan xalqı parlaq gələcəyini, işıqlı günlərini, dövlətin güclü iqtisadiyyatını bir daha cənab İlham Əliyevin siyasətində gördü. Bu gün Yaxın Şərqdə, Rusiya-Ukrayna cəbhəsində baş verənləri – ölüm-itim, dağıntı, dəhşət, bir sözlə, insanlığın yerlərdə süründüyü o görüntüləri izləyən zaman fərqinə varırıq ki, doğrudan da, müstəqilliyimiz və sabit həyatımız əlimizdəki ən böyük nemətimizdir. Deməli, xalqımız həm də təhlükəsiz, fəlakətdən uzaq, firavan gələcəyinə səs verib.

O, seçki kampaniyasında "Zəfərlərə davam!" şüarı ilə yola çıxmışdı, Qalib xalq isə Qalib Liderə növbəti dəfə etimad göstərməklə "Zəfərlərə davam!" – dedi... Hələ yolumuz uzundur. Biz cənab İlham Əliyevin rəhbərliyi altında Zəngəzur dəhlizini açacaq, Naxçıvanımızı anamız Azərbaycana birləşdirəcək, əzəli yurd yerlərimizə – Qərbi Azərbaycana möhtəşəm QAYIDIŞımızın təntənəsini yaşayacağıq. Bu yoldan bizi heç bir qüvvə və təşkilat – son günlərdə Qərbdə "Avroşüvənlik" edənlər belə döndərə bilməyəcək. Çünki bu siyasətin təməlində haqq, tarixi ədalət dayanır.

***Parlaq Qələbəniz və Qələbəmiz mübarəkdir, möhtərəm Prezident!***

**Muxtar RZAZADƏ**

# Demokratiyanın qalibiyyəti, xalqın seçimi

## Muxtar respublikamızın sakinləri Zəfər seçkisini belə qiymətləndirir

### Ali Baş Komandan, həm də mahir diplomat, qüdrətli dövlət xadimi kimi özünü bir daha təsdiq etdi




**İsmayıl HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

Ölkəmizdə prezident seçkiləri xalqımızın yüksək əhvali-ruhiyyəsi və fəallığı şəraitində başa çatdı. Qürur duyuruq ki, hər bir yurdsevər vətəndaşımız Azərbaycanın gələcək taleyinə məsuliyyətlə və diqqətlə yanaşaraq, ən layiqli namizədə səs verdi. Respublikamızda ilk dəfə seçkilər ölkəmizin ərazi bütövlüyünün bərpası və suverenliyinin qazanılması şəraitində keçirildi. İşğaldan azad edilmiş ərazilərimizdə yaradılmış 26 seçki məntəqəsində də vətəndaşlarımız yüksək vətəndaşlıq nümunəsi göstərərək cənab İlham Əliyevi yenidən ölkəmizin Prezidenti görmək arzularını ifadə etdilər. O bu haqqı son 20 ildəki fəaliyyəti ilə qazanıb. Prezidentimiz həm 44 günlük Vətən müharibəsində, həm lokal antiterror əməliyyatlarında Ali Baş Komandan, həm də mahir diplomat, qüdrətli dövlət xadimi kimi özünü bir daha təsdiq etdi.

Seçki ərəfəsində də xalqımızın müxtəlif təbəqələrinin nümayəndələri birmənalı şəkildə İlham Əliyevi dəstəkləyəcəklərini gizlətməyib açıq şəkildə söyləyirdilər. Çünki Azərbaycan Respublikasında görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Muxtar respublikamızın sakinləri həmişə olduğu kimi, şəffaf şəraitdə keçirilən seçkidə də yüksək fəallıq nümayiş etdirdi, axın-axın seçki məntəqələrinə gələrək Ulu Öndərin siyasi davamçısına səs verdilər.

Naxçıvan Muxtar Respublikasının bütün ziyalıları adından cənab İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edir, ölkəmizin rifahı və inkişafı naminə qətiyyətli liderimizə uğurlar və yüksək nailiyyətlər arzulayıram.

### Parlaq Qələbəniz mübarək, cənab Prezident!



**Gülşad Rüstəmova**
*şəhid Emin Sadiqovun anası*

Bu günlər şəhərimiz həmişəkindən daha qələbəlikdir. Atdığımız hər addımda, keçdiyimiz hər küçədə böyük bayram əhvali-ruhiyyəsi duyulur. İnsanların simasını sevinc hissləri bürüyüb. Onlardan biri də təsadüfən rastlaşdığımız nur üzlü şəhidimiz Emin Sadiqovun anası Gülşad anadır. Sevinclidir. Çünki Vətənimizin müdafiəsinə qalxaraq bizə bütöv Azərbaycanı bəxş edənlərdən olan Eminin gücünə, hünərinə arxalandığı, arxalandığı üçün də əsla yanılmadığı Ali Baş Komandan Zəfər seçkisində qalib olub. Gülşad ana deyir ki, xoşbəxtəm, sevincliyəm, qürurluyam. İnanıram ki, mənim timsalımda digər şəhid valideynləri də mənim qədər sevinclidirlər. Çünki bu gün prezidentimiz böyük səs çoxluğu ilə yenidən prezident seçildi. O, çox böyük sərkərdə, qalib xalqın qalib Lideridir. Onun şəhid ailələrinə göstərdiyi diqqət, qayğı bizim üçün təskinliklə yanaşı, həm də bütövlükdə cəmiyyətə bir mesajdır. Hər birimiz görürük ki, bizim arxamızda Azərbaycan dövləti, Azərbaycan Prezidenti dayanıb və şəhid ailələrinə hər zaman diqqət və qayğı göstərilir. Bütövlükdə, cənab Prezidentin şəhid ailələrinə öz xoş arzularını bildirməsi, bizim firavan həyatımız naminə yeni fərmanlar verməsi, sərəncamlar imzalaması bir daha göstərir ki, bizim kimi həssas insanlara cəmiyyət və dövlət başçısı tərəfindən böyük ehtiram var. Bu diqqətə görə Prezidentimizə dərin minnətdarlığımızı bildiririk. Zəfər seçkilərində qazandığımız ikinci böyük qələbə üçün Azərbaycan xalqını bir daha təbrik edir, ölkəmizə daim sülh və əmin-amanlıq arzulayıram.

✍ **Gülcamal TAHİROVA**

### Daim Onun əmrinə müntəzirik

Vətən torpaqlarının düşmən işğalından azad edilməsində imzası olan bir qazi kimi deyə bilərəm ki, növbədənkənar prezident seçkiləri müstəqillik tariximizin ən yaddaqalan seçkisi oldu. İnsanlar səhər saatlarından məntəqələrə axışırdı. Artıq nəticələr də bəllidir: dövlətçilik tariximizin Müzəffər Lideri, sözü və imzası bir olan Lider böyük səs çoxluğu ilə növbəti 7 ildə də ölkəmizə rəhbərlik edəcək. Cənab İlham Əliyev 44 günlük Vətən müharibəsi ilə adını Azərbaycan tarixinə əbədi olaraq yazdırıb. Fevralın 7-də keçirilən seçkidə xalqımız ona növbəti dəfə etimad göstərdi. Bir vətəndaş olaraq qəlbən inanıram ki, cəsur komandan bu inam və etimadı ən yüksək səviyyədə doğruldacaq. Çünki o, Ümummilli Lider Heydər Əliyev siyasi kursunun davamçısı kimi hər zaman verdiyi sözə sadiq Lider olub.

Cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, həmin gün işğaldan azad olunmuş torpaqlarda da səsvermə prosesi keçirildi. Xalqımız da səsvermədə fəallıq göstərdi.

Bir qazi kimi Ali Baş Komandanımıza qəzetiniz vasitəsilə ən xoş arzularımı çatdırır və bildirirəm ki, biz hərbi qulluqçular daim Onun əmrinə müntəzirik.

Muxtar respublika sakinləri üçün isə bu günlərdə ikiqat bayramdır. Sevinirik həm də ona görə ki, Nuhun yurdu Naxçıvan muxtariyyətinin 100-cü ildönümünü qeyd edir. Qoy Naxçıvanımız daim Şərqin qapısında parlayan Günəş kimi dayansın, onun işığı bizi isitsin, heç vaxt sönməsin.

Parlaq qələbəniz mübarəkdir,



**Əli ƏLİSOY**
*İkinci Qarabağ müharibəsinin qəhrəman qazisi*

cənab Prezident!

Yubileyin mübarək, muxtar respublikam!

### Dövlətçiliyimizin, müstəqilliyimizin əbədi olması arzusu ilə

Evdar qadınam. Yaşım imkan verib ki, həm sovet dönəmində, həm də müstəqillik illərində keçirilən seçkilərdə iştirak edim. Deməyim odur ki, həm o dövrün, həm də yaşadığımız müstəqillik illərində keçirilmiş seçkilər arasında olan fərqi gözlərimlə görmüşəm. Heç müqayisə etməyə dəyməz. İnanın ki, hələ növbədənkənar seçkilərin keçiriləcəyi ilə bağlı xəbəri eşidəndə necə sevindim, deyə bilmirəm. Seçkilərə böyük sevinclə getdim. Niyə?

Bu seçkiyə ərazi bütövlüyümüz təmin olunmuş, düşmən əsarətində olan torpaqlarımız azad edilmiş bir ölkə kimi ilk dəfədir ki, getdik. Məncə, bu, ölkəsini, dövlətini, müstəqilliyini sevən hər bir vətəndaş üçün böyük qürurdur. Bu qüruru bizdə yaradan şəhidlərimizə, ərazi bütövlüyümüz uğrunda sağlamlığını itirmiş qazilərimizə böyük ehtiram və məhəbbət hissi ilə dünənki seçkilərdə iştirak etdik. Ana kimi şəhidlərimizə nə qədər üzülsəm də, bilirəm ki, indi onların ruhu şaddır. Ölkəmizin, dövlətçiliyimizin, müstəqilliyimizin əbədi olması arzusu ilə getdik. Bir Azərbaycan qadını kimi 44 günlük müharibə ilə torpaqlarımızı böyük qəhrəmanlıqla özümüzə qaytaran Ali Baş Komandan cənab İlham Əliyevə səs verdim. Ona görə də xeyli qürurluyam.

Dövlətimiz var olsun, dövlətçiliyimiz, müstəqilliyimiz bundan sonra da yaşayacaq! Çünki Prezidentimizə inanırıq.



**Kifayət MİRZƏYEVA**
*evdar xanım*

### Naxçıvanda Prezident İlham Əliyevə dəstək yürüşü keçirilib





Bu gün keçirilən prezident seçkilərinin ilkin nəticələri elan olunan andan başlayaraq Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında dəstək yürüşü keçirilib.

Minlərlə sakin küçə və prospektlərdə avtoyürüşlər təşkil edib, üçrəngli bayraqlarla qələbə şüarları səsləndiriblər.

### Naxçıvanda prezident seçkilərinin nəticələri bayram ab-havası ilə qarşılanıb

Naxçıvan sakinləri bu gün ölkədə keçirilən növbədənkənar prezident seçkilərinin ilkin nəticələrini yüksək əhvali-ruhiyyə ilə qarşılayıblar.

Səslər hesablandıqdan və “exit-poll” nəticələri elan edildikdən dərhal sonra Naxçıvan şəhər sakinləri küçələrə axışıb, ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin yenidən prezident seçilməsini musiqi sədaları altında üçrəngli dövlət bayrağımız və səsləndirdikləri şüarlarla böyük sevgi, coşqu ilə qeyd edib, rəqs ediblər.



# Naxçıvanda seçki ab-havası



## Zəfər seçkisində iştirak etməkdən qürur duyuram



Vətən müharibəsi şəhidi Raqib Hüseynovun valideynləri Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbdə, 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin 18 saylı seçki məntəqəsində öz səsvermə hüquqlarından istifadə etdilər. Şəhid anası ***Rəna xanım*** bildirdi ki, Vətən müharibəsinin ilk günlərində oğlu şəhadət şərbəti içib. Onun bürünüb gəldiyi bayrağı bəy paltarı bilib bağrına basıb. Bu gün də oğlunun ətrini üçrəngli, ay-ulduzlu bayrağımızdan alır. Bu bayrağı daim yüksəklərdə görmək ümidi ilə oğlunun da canından keçdiyi Vətənin gələcəyi üçün səs verib. Vətənimizin bütün şəhid övladlarının, igid oğullarının valideynləri bu Zəfər seçkisində iştirak etməkdən qürur duyurlar.

## Zəfər seçkisi milli birliyimizin təntənəsidir!



2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 23 saylı seçki məntəqəsində olarkən şəhid ailələrinin bayram əhvali-ruhiyyəsi ilə Zəfər seçkilərində iştirak etdiyini qürurla müşahidə etdik. İtkin şəhid İbrahim Vəlizadənin valideynləri təəssüratlarını "Şərq qapısı" qəzetilə bölüşdü.

Atası ***Səməd Vəlizadə***: "44 günlük Vətən müharibəsində Azərbaycan xalqı ölkə Prezidentinin ətrafında ali amal uğrunda "dəmir yumruq" kimi birləşdi, Vətənə sonsuz sevgi və məhəbbət nümayiş etdirdi. Qazanılan bu böyük Qələbə Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. Bütün dünya Azərbaycanın qüdrətinə, haqq-ədalət uğrunda savaşına, xalqımızın misli görünməmiş qəhrəmanlıq salnaməsinə şahidlik etdi. Haqq savaşımızda mənim oğlum da qəhrəmanlıqla döyüşüb. Azərbaycanı canından çox sevən İbrahim digər Vətən aşiqləri kimi Ali Baş Komandanın əmri ilə irəliləyərək işğal altında olan torpaqlarımız uğrunda şücaət göstərib. Qalib ata kimi tarixi gündə seçimim qalib xalqın qalib Lideridir. Qürurlu olduğum qədər də sevincliyəm ki, bu gün bütöv Azərbaycanın daha da inkişafı, çiçəklənməsi naminə Zəfər seçkilərində iştirak etdim. Bu seçki milli birliyimizin təntənəsi oldu!"

## Oğlumun canından əziz bildiyi Vətənin işıqlı gələcəyinə səs verdim



Şanlı Vətən savaşında Qələbə qazanılmasında naxçıvanlı igidlər də qəhrəmanlıq göstərdilər, başımızı uca etdilər. Onlar yurd uğrunda "Öncə Vətən", – deyib canlarından keçdilər. Həmin igidlərdən biri – döyüşlərdə "Naxçıvan canavarı" adı ilə tanınan Vəli Quliyevin anası ***Həqiqət xanım*** müalicə üçün Bakı şəhərinə getdiyindən paytaxtın Nərimanov rayonu 18 saylı Seçki Dairəsinin 6 saylı seçki məntəqəsində öz səsvermə hüququndan istifadə edib. O, seçki ilə bağlı təəssüratlarını bizimlə bölüşdü:

– Bu seçkiyə kimi bir neçə səsvermədə iştirak etmişəm. Amma bu gün daha qürurvericidir biz şəhid ailələri üçün. Çünki bu seçki həm də Zəfərdən sonrakı ilk seçki olmaqla bərabər birliyimizin, həmrəyliyimizin, bütövlüyümüzün göstəricisidir. Oğlumun canından əziz bildiyi Vətənin işıqlı gələcəyinə səs verdim. Tanrı şəhid məzarlarının başı üstündə qürurla dalğalanan bayrağımızı daim uca, dövlətimizi var etsin!

## Bu seçki Azərbaycanın birlik səsini dünyaya çatdırdı





4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 15 saylı seçki məntəqəsində Vətən müharibəsi qazilərinin səsvermədə fəallıqlarını müşahidə etdik.

***Təvəkkül Qəhrəmanlı*** bildirdi ki, Vətənimiz yeni müstəqillik qazandığı illərdə qeyri-bərabər döyüşlərdə torpaqlarımızın 20 faizini itirdik. Lakin xalqımız ümidini heç vaxt itirmədi. Çünki əmin idik Ulu Öndər yolunun bizi işıqlı gələcəyə çıxaracağına. Böyüyüb, təhsil alıb hərbi formanı əynimə geyinəndə hazır idim Vətənin ərazi bütövlüyü üçün döyüşməyə. Və həmin gün gələndə ürəyimizdə düşmənə nifrət, Qarabağ yanğısı ilə döyüşə atıldıq. Xalq-ordu-dövlət birliyi qələbə çaldı. Bu gün qürur hissi ilə Laçında, Şuşada öz doğma torpaqlarında səsvermə hüququndan istifadə edən sakinləri izləyirəm. Çox sevinirəm ki, bu zəfərdə payı olan insanlardan biri də mənəm.

***Əli Musayev*** Vətən müharibəsində sağlamlığını itirən igid oğullardandır. O deyir ki, bu seçki xalqın bir olub Azərbaycanın hər nöqtəsindən birlik səsini dünyaya çatdırmasıdır. Bütöv olan səsidir. Birliyin, bütövlüyün, "dəmir yumruğ"un səsidir. Və nə xoş bizə ki biz də həmin səsin bir hissəsi ola bilmək şərəfinə nail olduq.

## "Şərq qapısı" qəzetinin əməkdaşı ilk dəfə səs verib



Tariximizə "Zəfər seçkisi" kimi daxil olan növbədənkənar prezident seçkilərində ilk dəfə səsvermə hüququndan istifadə edən gənclər arasında "Şərq qapısı" qəzetinin 19 yaşlı əməkdaşı ***Rafiq Təhməzov*** da var.

O, təəssüratlarını bizimlə belə bölüşdü: "2005-ci il 26 yanvar tarixdə doğulduğum üçün bu gün keçirilən növbədənkənar prezident seçkilərində ilk dəfə olaraq səs vermək hüququ qazandım. Seçkilərdə iştirak etmək mənə, hər şeydən öncə, özümü bir şəxsiyyət kimi hiss etdirdi. Xalqın rifahında və gələcəyində mənim də rolumun olacağı üçün çox xoşbəxtəm. Bir gənc kimi mən də öz vəzifəmi yerinə yetirdim".

## Həvayət Qurbanova: *"Bu gün bütöv Azərbaycanın bayram günü, birlik günüdür"*



Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü ***Həvayət Qurbanova*** ilə Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbdə yerləşən 4-28 saylı seçki məntəqəsində həmsöhbət olduq: "Bu seçki indiyə qədər gördüyüm seçkilərdən fərqli, deyərdim ki, xeyli fərqlidir. Azərbaycan çətin şəraitdə müstəqillik qazandığı illərdə xalq birləşib çətinliklə də olsa, azadlığını, müstəqilliyini qoruya bildi. Şükür Allaha ki, illər əvvəl itirdiyimiz torpaqları igid oğullarımızın sayəsində geri qaytardıq. Bu seçki gününü bayram adlandırıram. Çünki Şuşada, Laçında, Xankəndidə, hər kəs öz yurdunda öz sabahının taleyini müəyyənləşdirdi. Bayrağımız həmişə uca, Vətənimiz var olsun deyə, nəvələrimizin, nəticələrimizin işıqlı gələcəyinə, bununla da Vətənimizin daha gözəl günlərinə səs verdim".

## Brayl əlifbası ilə səsvermə imkanı yaradılıb



Görmə qabiliyyətini tam və ya qismən itirmiş şəxslərin seçkilərdə rahat iştirakını təmin etmək məqsədilə brayl əlifbası ilə trafaretlər çap olunaraq bütün seçki məntəqələrinə təqdim edilib.

4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin 16 saylı seçki məntəqəsində qeydiyyatda olan gözdən əlil vətəndaş da bu şəraitdən istifadə edərək səs verib. Səsvermədə iştirak edən ***Elməddin Kərimov*** təəssüratlarını qəzetimizlə bölüşərək bildirdi: "Mən də vətəndaş kimi seçki hüququmdan istifadə etdim. Bizim üçün bu şəraitin yaradılmasına sevindim. Tam rahatlıqla ailəmlə birlikdə seçdiyimiz namizədə səs verdik".

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası 18 yaşını tamamlayan və ilk dəfə səs verən Naxçıvan sakinini təbrik edib



Dünən 18 yaşı tamam olan Naxçıvan şəhər sakini ***Qurbanova Fatimə Qəzənfər qızı*** ilk dəfə olaraq səs verib. O, 4 saylı Naxçıvan Seçki Dairəsinin 28 saylı seçki məntəqəsində seçici kimi iştirak edib. Ad günü ilə bağlı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Fatimə Qurbanovanı təbrik edib. Təbrik məktubunu ona 28 saylı seçki məntəqəsinin sədri Cavid Səfərov təqdim edib.

## 104 yaşlı naxçıvanlı seçici səs verib



Naxçıvan Muxtar Respublikasının ən yaşlı seçicisi, Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşayan 104 yaşlı ***Hüseynəliyeva Şərəf Muxtar qızı*** prezident seçkilərində səs verib.

2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 41 saylı Qıvraq seçki məntəqəsində seçicilər siyahısında qeydiyyata alınmış Şərəf Hüseynəliyeva əvvəlki seçkilərdə olduğu kimi, budəfəki prezident seçkisində də iştirak etmək arzusunda olub. Səhhəti ilə əlaqədar seçki məntəqəsinə gedə bilmədiyi üçün ailəsi tərəfindən məntəqə seçki komissiyasına ərizə ilə müraciət edilib. 1920-ci il təvəllüdlü Ş.Hüseynəliyevanın müraciəti nəzərə alınaraq səsvermə günü onun yaşadığı evə daşınan seçki qutusu göndərilib. 104 yaşlı seçici qızının köməyi ilə bülleteni dolduraraq istədiyi namizədə səs verib.

## Şərur rayonu

# Zəfər seçkisi ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir





7 fevral 2024-cü il! Xalqın Zəfər seçkisinin keçirildiyi bu gün Azərbaycanın dövlətçilik tarixində olduqca əlamətdar bir gün kimi yaddaşımıza yazıldı. Müstəqillik tariximizdə ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisini əhatə etdi. Prezident seçkiləri gününü xalqımız böyük ruh yüksəkliyi ilə qarşılayaraq öz konstitusiya hüququndan istifadə etdi. Şərur rayonunda da səhər saatlarından yüzlərlə seçicinin axışaraq seçki məntəqələrinə gəlməsi Oğuz elinin müasir inkişafının təntənəsi idi. Əsl bayram əhvali-ruhiyyəsi yaşanan rayonda səhər saat 8-də bütün məntəqələr qapılarını seçicilərin üzünə açmışdı. 1 saylı Şərur-Sədərək və 2 saylı Şərur-Kəngərli Dairə Seçki komissiyalarının əhatə etdiyi məntəqələrdə seçkilər bütün prosedur qaydalara uyğun olaraq aparılırdı. Məntəqələrdə seçicilərin öz namizədlərinə səs vermələri üçün zəruri olan bütün şərait yaradılmışdı. Azərbaycanın seçki tarixində 2008-ci ildən başlayaraq tətbiq edilən və seçki məntəqələrindən kənarda insanlara internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu seçkilərdə də tətbiq olunmuşdu. Seçkilərin gedişini müşahidə edən istər beynəlxalq, istərsə də yerli müşahidəçilər üçün də geniş imkanlar yaradılmışdı. Rayon mərkəzində yerləşən 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 1 saylı seçki məntəqəsində səsvermənin yeni başlanmasına baxmayaraq, seçicilərin sayı sürətlə artırdı. Məntəqə seçki komissiyasının sədri ***Qulu Quliyev*** dedi: "Əslində, səhər tezdən bu qədər seçicinin məntəqəyə gəlməsi gözlənilən idi, çünki şərurlular ölkəmiz üçün taleyüklü məsələlərə həmişə həssaslıqla yanaşıblar".

Məntəqədən çıxan seçicilərlə də söhbət edərək onların fikirlərini öyrəndik. ***İsmət Məmmədova*** bildirdi ki, burada proses tam şəffaf təşkil olunub. Yaşadığım ünvana bildiriş göndəriblər. Seçki mədəniyyətinin hər seçkidə daha da yüksəlməsi məni olduqca məmnun edir. Azad şəkildə seçimimi edərək ən layiqli namizədə səs verdim.

Çərçiboğan kənd tam orta məktəbində yerləşən 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 10 saylı seçki məntəqəsi qarşısında da qələbəlik idi. Səhər saatlarından seçici fəallığı müşahidə olunurdu. Məntəqə seçki komissiyasının sədri ***Vasif Nəcəfli*** bildirdi ki, aparılan hazırlıq işləri nəticəsində seçicilər heç bir çətinliklə qarşılaşmadan səsvermə hüquqlarından tam istifadə edə bilirlər. Burada olarkən ilk dəfə prezident seçkilərində iştirak edən ***Əfsanə Məmmədova*** da fikirlərini bizimlə bölüşdü. O dedi: "Birinci dəfədir, səsvermə prosesinin necə olduğunu görürəm. Çox qürurvericidir. Ölkəmizin gələcəyini düşünən layiqli namizədə səs vermək mənim üçün böyük şərəfdir".

2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 23 saylı məntəqəsində Vətən müharibəsi şəhidi Elməddin Meydanovun qardaşı ***İsmayıl Meydanov*** "Şərq qapısı" qəzetilə fikirlərini belə bölüşdü: "Xalqın prezidenti adını Azərbaycan tarixinin səhifələrinə əbədi yazan qalib xalqın qalib sərkərdəsidir. Qalib xalqımıza qalib prezident yaraşır. Bu gün seçkilərdə iştirak etməyi özümə borc bildim. Ailəmlə birlikdə seçkilərdə iştirak etdik, bu seçki digər seçkilərə bənzəmirdi. Bu seçkidə başıuca, alnıaçığıq. Vətənimizi bütövləşdirən şəhidlərin ruhu şad olsun".

Qeyd edək ki, 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 57 seçki məntəqəsində, ümumilikdə, 48024 seçici qeydə alınmışdı ki, həmin seçicilərin 2925 nəfəri ilk dəfə prezident seçkilərində iştirak edirdi. Seçkilərdə şəffaflığın təmin olunması, yerli və xarici müşahidəçilərin, eləcə də media nümayəndələrinin prosesi sərbəst izləməsi üçün seçki məntəqələrində, ümumilikdə, 7 veb-kamera quraşdırılmışdı.

Zəfər seçkisi Qarabağ qələbəmizin siyasi, məntiqi davamıdır.

✍ **Gülcamal TAHİROVA**

## Babək rayonu

# İnamlı seçki yolunda xoş sabahlara doğru



Azərbaycan Respublikasında keçirilən növbədənkənar prezident seçkilərinin gedişatını izləmək üçün 3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsinə üz tutduq. Dairədən verilən məlumatda aydın oldu ki, ümumilikdə, dairədə 65 məntəqə yaradılıb. Dairə üzrə seçici sayı 47617 nəfərdir. İlk dəfə səs verənlərin sayı 2664 nəfərdir ki, bunlardan da 83 nəfəri 18 yaşı tamam olanlardır. 6 nəfər seçici isə 96 yaşlıdır. Dairə üzrə seçki məntəqələrində 7 müşahidə kamerası quraşdırılmışdı. Seçki prosesini Babək rayonunda izlədik. Məlumat üçün bildirək ki, bu bölgədə 24847 seçicinin səs verməsi üçün 29 məntəqə yaradılmışdı. 1384 nəfər seçkilərə ilk dəfə qatılmışdı ki, bunlardan da 49 nəfəri 18 yaşı tamam olmuşlardır. Rayon məntəqələrində 5 müşahidə kamerası quraşdırılmışdı. Babək Rayon Mədəniyyət Evində yerləşən 2 saylı seçki məntəqəsində 1403 seçici qeydə alınmışdı ki, onlardan da 80 nəfəri ilk dəfə səs verənlərdən idi.

Məntəqə seçki komissiyasının üzvləri seçiciləri təmkinlə qarşılayır, onların rahat səs vermələrinə şərait yaradırlar. Bu məntəqədə Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş gizir Ümid Novruzlunun atası ***Bahadur Novruzov***la həmsöhbət olduq. Şəhid atası bildirdi ki, bu seçkidə iştirak etməkdən, istədiyi namizədə səs verməkdən qürur duyur. Bu gün kim bayrağı Şuşada, Xankəndində dalğalandırıbsa, ərazi bütövlüyümüzü, suverenliyimizi kim təmin edibsə, səsimiz onun səsidir.

Üz tutduğumuz növbəti ünvan Babək şəhərindəki 1 nömrəli tam orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsi oldu. Bu məntəqədə 1200 seçici öz hüquqlarından istifadə edirdi ki, onlardan da 65 nəfəri ilk dəfə səsverənlər idi. Qazi, baş leytenant ***Abbasəli Tarverdiyev*** də hərbi formada əzəmətli və qürurlu, alnıaçıq, üzüağ bu məntəqədə səsvermədə iştirak edirdi. Onun sözləri: "Bu günün növbədənkənar prezident seçkiləri tam və bütöv Azərbaycan ərazisində keçirilir. Buna görə də biz bu xoş günləri yaşayırıq. Cənab Prezidentimizin özü də Xankəndi şəhərində səsvermədə iştirak etdi. Biz də döyüşlərdə iştirak etmiş hərbi qulluqçu, qazi olaraq Vətənimizin, dövlətimizin yanındayıq".

Növbəti üz tutduğumuz ünvan isə Cəhri qəsəbə xəstəxanasının binasında yerləşən 23 saylı seçki məntəqəsi oldu. Məntəqədə 1111 seçicinin səs verməsi nəzərdə tutulmuşdu. Onlardan 44 nəfə-



ri seçkidə ilk dəfə olaraq iştirak edirdi. Xəstəxananın baş həkimi ***Qulam Abdullayev*** bizə yaxınlaşaraq öz təəssüratlarını bölüşdü: "Bu gün keçirilən seçkilərdə vətəndaşlar çox fəallıq göstərirlər. Mən də öz ailəmlə səhər saatlarında seçkidə iştirak etmək üçün evdən çıxdıq və düşündük ki, ilk seçicilər olaraq səs verək. Lakin məntəqənin qarşısına çatanda gördük ki, onlarla kənd sakini səs vermək üçün növbə gözləyir. Biz də öz səsimizi layiqli namizədimiz üçün istifadə etdik".

Bundan əlavə, Cəhri qəsəbəsindəki 20, Kərimbəyli kəndindəki 5, Kültəpə kəndindəki 6 və Yuxarı Uzunoba kəndindəki 16 saylı seçki məntəqələrində də seçicilərdə yüksək əhvali-ruhiyyə müşahidə etdik. Burada da izdiham müşahidə olunur, səsverməyə gələnlərin sayı anbaan artırdı. Seçki prosesi şəffaf, demokratik və qanunvericiliyə uyğun aparılırdı. Səsverməni beynəlxalq və yerli müşahidəçilər izləyirdilər.

✍ **Fariz ƏHMƏDOV**

## Ordubad rayonu

# Zəfər seçkiləri xalqımızın arzularının təminatçısıdır

Növbədənkənar prezident seçkilərində Ordubad rayonundakı seçki məntəqələrində də fəallıq müşahidə etdik. Öyrəndik ki, 6 saylı Ordubad-Culfa Seçki Dairəsi üzrə, ümumilikdə, seçki keçirilməsi üçün 65 məntəqə ayrılıb.



Ordubad şəhərindəki 3 saylı seçki məntəqəsində 1448 seçici qeydə alınmışdı. Onların 3 nəfəri ilk dəfə seçkidə iştirak etmək hüququ qazanan 18 yaşını tamamlamış vətəndaş idi. Bununla yanaşı, məntəqə üzrə 7 daşınan seçki qutusu üçün müraciət edilmişdi.

Məntəqədə həmsöhbət olduğumuz seçicilərdən yaşı 60-ı ötmüş ***Hüseyn Məmmədov***



dedi: "Ölkəmizdə keçirilən prezident seçkilərində mütəmadi olaraq iştirak etmişəm. Bu dəfə daha böyük sevinclə, həvəslə seçkiyə qatıldım. Seçimimdə isə ölkəmizin, Vətənimizin mənafeyini, xalqımızın istəklərini nəzərə alıb istədiyim namizədə səs verdim".

Rayon mərkəzindəki 2 saylı seçki məntəqəsində 1473 seçici qeydə alınmışdı ki, onlar arasında 18 yaşını tamam edərək ilk dəfə iştirak edən şəxslər də var idi. 4 saylı məntəqəsində isə 1335 nəfər seçicinin səs verməsi nəzərdə tutulmuşdu. Həmin seçicilərdən də 4 nəfəri seçkilərə ilk dəfə qatılmışdı.

Adıçəkilən məntəqələrdə müşahidə kameraları quraşdırılmış, təhlükəsiz və şəffaf seçki prosesi təmin edilmişdi.

Rayon üzrə ən çox seçicinin qeydə alındığı ünvanlar rayonun Dəstə kəndində yerləşən 17 və 18 saylı seçki məntəqələri idi. 17 saylı seçki məntəqəsində 1488, 18 saylı seçki məntəqəsində isə 1491 nəfərin adı seçici siyahılarına daxil edilmişdi. Məntəqə sədrlərinin verdiyi məlumata əsasən hər iki məntəqə üzrə 134 nəfərin ilk dəfə səsvermə hüququndan istifadə etməsi nəzərdə tutulmuşdu. 10 nəfər üçün isə daşınan seçki qutusu müəyyən edilmişdi. 17 saylı seçki məntəqəsində isə 18 yaşı tamam olmuş 9 seçici seçkilərdə ilk dəfə iştirak edib.

Sonuncu müşahidə apardığımız məntəqə isə rayonun Nüsnüs kəndində yerləşən 10 saylı seçki məntəqəsi oldu. 1478 nəfər seçicinin qeydə alındığı məntəqədə 2 nəfər üçün daşınan seçki qutusu nəzərdə tutulmuşdu. Məntəqə üzrə 3 nəfər isə 18 yaşını tamamlamış və seçki hüququ qazanmış vətəndaş idi.

Onu da deyək ki, seçki mərhələsində aşkarlığın və şəffaflığın təmin olunması ilə yanaşı, prosesin media mənsubları tərəfindən hərtərəfli işıqlandırılması da diqqətdə saxlanılmışdı.

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Culfa rayonu

# Ölkəmizin parlaq gələcəyinə səs verdik

7 fevral 2024-cü il ölkəmiz üçün çox əlamətdar bir gün kimi tarixə yazıldı. Bütün Azərbaycan olaraq birliyimizi və bərabərliyimizi yenidən nümayiş etdirdik. Muxtar respublikamızdakı seçici fəallığı 5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsi üzrə seçki məntəqələrində də hiss olunurdu.





Qeyd edək ki, bu dairə üzrə 46 məntəqədə 48046 seçiciyə səs vermək üçün hərtərəfli şərait yaradılmışdı. Onlar arasında ilk dəfə səs verən seçicilərin sayı 3517 nəfər təşkil edirdi. Dairə üzrə daşınan seçki qutusu üçün müraciət edənlərin sayı 69 nəfər idi. Ən çox seçici sayı isə 38 saylı Ərəzin seçki məntəqəsində idi. Bu seçki məntəqəsi üzrə 1468 nəfər qeydə alınmışdı. Həmçinin 5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsinin 20, 29, 33, 34, 38 saylı seçki məntəqələrində müşahidə kameraları quraşdırılmışdı.

Səhər saatlarından başlayaraq 5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsinin 34 saylı seçki məntəqəsində xalqının gələcəyi üçün səs verməyə gələn sakinlər fəallıqları ilə diqqəti çəkirdilər. Artıq xalqımızın qürur mənbəyinə çevrilmiş şəhid ailələri də seçkidə öz layiqli namizədinə səs vermək üçün bu prosesdə fəal iştirak edirdilər. Onlardan biri də İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş leytenant Yaqub Nəcəfovun anası ***Xuraman Nəcəfova*** idi. Şəhid anası bildirdi ki, 7 fevral növbədənkənar prezident seçkilərinin tarixi seçkidir. Çünki bu seçki Azərbaycanın bütün bölgələrində, o cümlədən qəhrəman oğullarımızın öz canları bahasına işğaldan azad etdiyi bütün ərazilərdə keçirilir. Buna görə də bütöv Azərbaycan xalqı seçkilərdə iştirak etmək, səs vermək üçün bu günü gözləyirdi. Ailəmiz də həmçinin. Biz də bütün ailə üzvlərimizlə birgə xalqımızın, ölkəmizin parlaq gələcəyi naminə seçkilərdə iştirak etdik və öz layiqli namizədimizə səs verdik. Düşünürük ki, Azərbaycanın gələcəyi daha yaxşı olacaq və Ulu Öndərimiz Heydər Əliyevin də dediyi kimi: ***"Azərbaycan dünyaya Günəş kimi doğacaq".*** Bir sözlə, qürur duyuram ki, prezident seçkilərində yüzlərlə şəhid anaları kimi mən də öz iradəmlə seçkidə iştirak edərək xalqımızın parlaq sabahlarına səs verdim.

✍ **Aidə İBRAHİMOVA**

Kəngərli rayonu

## 20 yaşlı rayonun sakinləri parlaq gələcəyə səs verdilər

Fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri öz mütəşəkkilliyi ilə yadda qaldı. Böyük ictimai-siyasi əhəmiyyət daşıyan seçkilər Kəngərli rayonunda da uğurla başa çatdı. 20 yaşlı rayonun sakinləri parlaq gələcəyə səs verdilər.



Bu seçkilər göstərdi ki, muxtar respublikamızda növbədənkənar prezident seçkilərinin azad, şəffaf, demokratik şəkildə keçirilməsi üçün seçki təcrübəsi formalaşdırılıb, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb.



Kəngərli rayonunda da seçkilərə ciddi hazırlıq işləri görülmüş, seçicilərin rahat, sərbəst səs verməsinə şərait yaradılmışdı. Qeyd edək ki, seçkilərlə bağlı 2 saylı Şərur-Kəngərli Seçki Dairəsi üzrə Kəngərli rayonunda seçicilər 15 seçki məntəqəsində öz namizədlərinə səslərini veriblər. Rayon üzrə 14 min 501 seçici qeydə alınmışdı.

Onu da bildirək ki, muxtar respublika üzrə ən yaşlı seçici də məhz bu dairədə səs verib. Adıçəkilən seçki dairəsinin 41 saylı Qıvraq seçki məntəqəsində seçicilər siyahısında qeydə alınan ***Şəraf Hüseynəliyeva*** əvvəlki seçkilərdəki kimi, budəfəki prezident seçkisində də iştirak etmək arzusunda olub. Səhhəti ilə əlaqədar seçki məntəqəsinə gedə bilmədiyi üçün ailəsi tərəfindən məntəqə seçki komissiyasına ərizə ilə müraciət edilib.

Bu dairə üzrə ilk dəfə seçkilərdə iştirak edən vətəndaşların sayı isə 2925 nəfər olub. Həmçinin Kəngərli rayonunda 43 və 49 saylı seçki məntəqələrində veb-kameralar quraşdırılmışdı ki, istənilən şəxs seçkini izləyə bilsin.

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı 3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsi üzrə isə Kəngərli rayonunda seçicilər 7 seçki məntəqəsində öz hüquqlarından istifadə ediblər.

Ümumiyyətlə, 3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsi üzrə ilk dəfə seçkilərdə iştirak edən seçicilərin sayı 2664 nəfər idi. Bu dairədə ən çox seçicinin qeydiyyatda olduğu seçki məntəqələri isə Babək şəhərindəki 2 saylı (1403) və Kəngərli rayonundakı 56 saylı (1402) Xok seçki məntəqəsi olub.

1166 seçicinin qeydiyyata alındığı 2-42 saylı seçki məntəqəsində ilk dəfə seçkilərdə iştirak etmək hüququ əldə edən gənclərin fəallığı diqqətdən yayınmırdı. Seçki məntəqəsində olarkən ilk dəfə səs vermək üçün gələn ***Zəmanə Cəfərova***nın fikirlərini öyrəndik. O bildirdi ki, növbədənkənar prezident seçkilərində ilk dəfə səs verdiyi üçün qürur hissi keçirir, eyni zamanda həyəcanlıdır: "Bu mənim həyatımda tarixi bir andır və seçkidə öz istədiyim, seçdiyim namizədə səs verdim. Məncə, hər bir gənc seçkilərdə, səsvermədə mütləq fəal iştirak etməlidir. Çünki bu, vətəndaşlıq borcumuzdur və həyatımızda mühüm hadisədir".

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə 2-43 saylı seçki məntəqəsi Qıvraq qəsəbəsində fəaliyyət göstərirdi. 1246 seçicinin qeydə alındığı məntəqədə seçicilərin sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılmışdı. Bunu seçicilərdən ***Camilə Məmmədova*** da bildirdi: "Digər qəsəbə sakinləri kimi, mən də sərbəst şəkildə öz namizədimə səs verdim".

Bir sözlə, növbədənkənar prezident seçkilərində Kəngərli rayon sakinlərinin yüksək seçici fəallığı nümayiş etdiklərinin şahidi olduq.

✍ **Ceyhun MƏMMƏDOV**

Şahbuz rayonu

## Ucqar bölgəmiz Şahbuzda seçkilər yüksək səviyyədə keçirilib

Növbədənkənar prezident seçkiləri muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da öz mütəşəkkilliyi, yüksək səviyyədə təşkili ilə yadda qaldı. Həmin gün 3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsi üzrə 65 seçki məntəqəsindən 29-u bu rayonun ərazisində fəaliyyət göstərirdi.






Məlumat üçün bildirək ki, Şahbuz rayonunda yaradılmış 29 seçki məntəqəsində, ümumilikdə, 16 min 572 seçici qeydə alınmışdı ki, həmin seçicilərin 861-i ilk dəfə prezident seçkilərində iştirak edirdi. Seçkilərin yüksək əhvali-ruhiyyədə keçməsi, şəffaflığın təmin olunması, yerli və xarici müşahidəçilərin, eləcə də media nümayəndələrinin prosesi sərbəst izləməsi üçün əlverişli şərait yaradılmış, 3-37 və 3-40 saylı seçki məntəqələrində isə veb-kamera quraşdırılmışdı.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə yerləşən və 1393 seçicinin qeydə alındığı 40 saylı seçki məntəqəsinə sakinlər böyük ruh yüksəkliyi ilə axın edirdilər. Məntəqədə, ilk növbədə, yerli müşahidəçilərin iştirakı ilə seçki qutuları möhürlənir, qanunvericiliyə uyğun digər təşkilati işlər həyata keçirilirdi. Saat 8⁰⁰-da artıq səsverməyə start verildi. Şəhər sakini ***Röya Əliyarlı*** ilk dəfə prezident seçkilərində iştirak edirdi. O bildirdi ki, bu seçki onun üçün iki mühüm amillə əlamətdardır. Həm birinci dəfədir, öz layiqli namizədinə səs verir, həm də bu hüquqdan suverenliyi, ərazi bütövlüyü təmin olunmuş qalib ölkənin gənci kimi istifadə edir. Gənclərə göstərilən diqqət və qayğı, onların yüksək təhsil qazanmaları üçün yaradılan şərait, dövlət idarəetməsində önə çəkilmələri barədə danışan, ümumilikdə, dövlət gənclər siyasətinin məqsədyönlü şəkildə həyata keçirildiyini vurğulayan Röya bu siyasəti davam etdirəcək namizədə səs verdiyini deyir.

Növbəti üz tutduğumuz ucqar dağ kəndi olan Biçənəkdə yerləşən 3-51 saylı seçki məntəqəsində seçki prosesi üçün yaradılan ideal şəraitlə qarşılaşırıq. Məntəqə sədri ***Həsənxan Quliyev*** bildirdi ki, burada 883 seçici qeydə alınıb, 70 nəfər ilk dəfə səs verəcək, səsvermə seçicilərin yüksək fəallığı şəraitində keçirilir. Kənd ziyalısı ***Bəbir Məmmədov*** bizimlə söhbətində vurğuladı ki, bütöv, qalib Azərbaycanın hər bir vətəndaşı istəyir ki, sülh, əmin-amanlıq şəraitində yaşasın, ölkəsi inkişaf etsin. Mən də bu inkişafın davamlılığı naminə öz səsimi layiqli namizədə verdim. İnanıram ki, qüdrətli ölkəmiz bundan sonra daha böyük uğurlara imza atmaqda davam edəcək.

Rayonun digər ucqar yaşayış məntəqəsi sayılan Kolanıya yollanırıq, bu kənddə yaradılan, 1189 seçicinin qeydiyyata alındığı 3-48 saylı seçki məntəqəsində də seçicilərin fəallığını müşahidə etdik. Məntəqəyə üz tutan seçicilərin seçki prosesi ilə bağlı fikirlərini öyrəndik. ***Aydın İsmayılov*** kəndin ən yaşlı sakini kimi bu ümumxalq tədbirdə iştirak edir. Bildirir ki, yaşının 90-ı ötməsinə baxmayaraq, daşınan qutudan istifadə üçün müraciət ünvanlamayıb, məntəqəyə gələrək Zəfər seçkisində iştirakı mənəvi borcu hesab edib: "Ölkəmiz müstəqillik qazandıqdan indiyədək bütün seçkilərdə iştirak etmişəm. Düşünürəm ki, bu prosesdə gələcəyini fikirləşən hər bir vətəndaşın iştirakı vacibdir. Proses tam şəffaf, demokratik şəraitdə keçirilir. Bizim gələcəyimiz gənclərdir, nəvələrimiz, nəticələrimizdir. Ona görə mən də öz nəvələrimin timsalında böyüməkdə olan nəslin etibarlı sabahları naminə səs verdim. İnanıram ki, bu günümüz dünəndən daha yaxşı olduğu kimi, sabahımız da bu gündən aydın, işıqlı olacaq".

Ümumi fikir kimi onu deyə bilərik ki, fevralın 7-də növbədənkənar prezident seçkiləri ilə bağlı Şahbuz rayonu üzrə müşahidələr apardığımız məntəqələrdə tam şəffaflığın, demokratikliyin, azad seçki mühitinin formalaşdığını gördük. Ümumxalq işində hər bir vətəndaşın, xüsusilə də gənclərin fəallığı isə gələcəyimizə böyük ümidlər yaratmaqla Zəfər seçkisinin yeni zəfərlərə vəsilə olacağını göstərir.

✍ **Nail ƏSGƏROV**

Sədərək rayonu

## Qalib dövlətin gəncləri kimi seçkilərdə iştirak etməyimiz bir xoşbəxtlikdir



*Növbədənkənar prezident seçkiləri ölkəmizin qeyrət qalası sayılan Sədərək rayonunun Sədərək kəndindəki 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin 37 saylı seçki məntəqəsində də çox mütəşəkkil və şəffaf keçirildi.*

Hələ seçkiyə başlamazdan əvvəl məntəqə yerləşən ərazidə çoxlu sayda seçici yığışmışdı. Saatlar 8⁰⁰-ı göstərdikdə məntəqədə səsverməyə start verildi. Hər bir seçici yüksək əhvali-ruhiyyə ilə seçki məntəqəsinə daxil olur, şəxsiyyət vəsiqəsini göstərir, seçki bülleteni alıb səsvermə kabinəsinə keçir, nəzərdə tutduğu namizədə səs verirdi. Məntəqə seçki komissiyasının üzvləri təmkinlə, xoş rəftarla seçiciləri qarşılayır, onların rahat, sərbəst səs vermələrini təmin edirdilər. Qeyd edək ki, adıçəkilən dairə üzrə yaradılmış 49 seçki məntəqəsindən 12-si Sədərək rayonunda yerləşir. Rayon üzrə, ümumilikdə, 12980 seçici qeydə alınmışdı. Bu bölgə üzrə 820 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edirdi. Məntəqəyə elə ilk üz tutan da ilk dəfə səsvermə hüququndan istifadə edən gənclər oldu. Onlar seçki ilə bağlı öz fikirlərini "Şərq qapısı" qəzeti ilə bölüşdülər. 1-37 saylı seçki məntəqəsində səs verən ***Zümrüd Rzazadə*** ilk dəfə prezident seçkilərində səsvermə hüququ qazandığı üçün qürur duyduğunu bildirdi: "İlk dəfə səs verəcəyim günü səbirsizliklə gözləyirdim. Düşünürəm ki, gənclərin bu proseslərdə fəal iştirak etməyinin Azərbaycan xalqının gələcək taleyində həlledici rolu olacaq".

Növbəti üz tutduğumuz ünvan rayonun Heydərabad qəsəbə tam orta məktəbində yerləşən 1-36 saylı seçki məntəqəsi oldu. Orada ilk dəfə səs verənlər arasında ***Nuriyyə Cavadova*** ilə görüşdük. O bildirdi: "İlk dəfədir, səs verdiyim üçün həyəcanlıyam. Bizim gəncliyimiz çox xoşbəxtdir ki, ölkəmizdə son illər baş verən bütün tarixi hadisələrin yaxından şahidi olur. Bu növbədənkənar prezident seçkiləri də belə əlamətdar günlərdən biridir. Ərazi bütövlüyü bərpa olunmuş xalqın, qalib xalqın gəncləri olaraq bu seçkilərdə iştirak etməyimiz taleyimizə




yazılmış bir xoşbəxtlikdir".

Yeri gəlmişkən onu da bildirək ki, dairənin 36 saylı Heydərabad seçki məntəqəsində veb-kamera da quraşdırılmışdı. Məntəqədə seçicilərin səsvermədə mütəşəkkil iştirakının, müşahidəçilərə yaxşı şərait yaradıldığının şahidi olduq.

İlk dəfə səs verən gənclər sırasında Bakı şəhərindən gələnlər də var idi. 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin 42 saylı seçki məntəqəsində səs verən ***Selma Hüseynova*** dedi ki, bu tarixi günü həmişə xatırlayacaq. Çünki həyatında əlamətdar gündür: "Belə bir gündə mən də Bakı şəhərindən gəlib öz layiqli namizədimə səs verdim. Cəmiyyətimiz inkişaf edir, dünyada baş verən hadisələri də yaxından izləyə bilirik, müqayisələr aparırıq. Bu inkişafı rayonumuzun timsalında da görmək olar. Belə ki, sərhəd bölgəsində yollar çəkilib, yaraşıqlı park və xiyabanlar salınıb, kənd mərkəzləri, səhiyyə, təhsil ocaqları inşa edilib, hamısı da müasir səviyyədə. Bütün bunların qarşılığında bizim də məsuliyyətimiz xeyli artır. Ölkənin demokratik və sürətli inkişafı üçün biz, ilk növbədə, hüquqlarımızdan düzgün istifadə etməliyik. Mən də belə etdim. Azərbaycanın bundan sonrakı inkişafı üçün böyük işlər görə biləcək namizədə səs verdim".



Səsverməyə gələnlərin sayı anbaan artırdı. Onlar şəffaf bir şəraitdə öz siyasi iradələrini ifadə etməyə tələsirdilər. Səsverməni beynəlxalq və yerli müşahidəçilər də izləyirdilər. Məntəqələrdə kütləvi informasiya vasitələri nümayəndələrinə müfəssəl məlumat almaq imkanı yaradılmışdı.

✍ **Bülbül QULİYEVA**

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 34